# “Biz Şuşanı dünyanın ən gözəl şəhərlərindən birinə çevirəcəyik”



***Hazırda 44 günlük Vətən müharibəsində qazanılan tarixi qələbədən sonra işğaldan azad edilən Qarabağın bərpası, dirçəldilməsi istiqamətində Prezident İlham Əliyevin tapşırıq, göstəriş və tövsiyələri ilə mühüm addımlar atılır. Bu addımlar sırasında Qarabağ Dirçəliş Fondunun yaradılması, icra hakimiyyətlərində şəhid ailələri və qazilərlə bağlı müvafiq şöbənin təşkil edilməsi, Füzuli–Şuşa yolunun çəkilməsi, Füzuli aeroportunun təməlinin qoyulması böyük önəm daşıyır. Bu sırada, eyni zamanda, ölkə Prezidentinin cari il yanvarın 21-də imzaladığı müvafiq fərmanla işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələrinin təyin edilməsi məsələsi də mühüm əhəmiyyətə malikdir.***

Yeri gəlmişkən, adı çəkilən sənədə əsasən, düşməndən təmizlənən yaşayış məntəqələrinin dirçəlişi istiqamətində quruculuq, bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi, bu hədəfə nail olunmasında dövlət orqanlarının (qurumlarının) və digər təşkilatların əlaqələndirilmiş fəaliyyətinin gücləndirilməsi, habelə idarəetmədə çevikliyin və səmərəliliyin artırılması məqsədilə işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliklərinin təsis edilməsi nəzərdə tutulub. Artıq sözügedən fərmanın icrasına başlanıb.

Dövlətimizin başçısının 27 yanvar 2021-ci il tarixli sərəncamı ilə Aydın Kərimovun Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi təyin edilməsi də yuxarıda adı çəkilən fərmanın icrası istiqamətində atılan addımlardan biridir.

Dövlətimizin başçısı sözügedən sərəncamı imzaladığı gün– yanvarın 27-də Aydın Kərimovu videoformatda qəbul edərkən, çıxışında da bu mühüm məqama toxunub: “Azad edilmiş ərazilərdə Prezidentin xüsusi nümayəndəsi institutu mənim təşəbbüsümlə yanvarın 19-da yaradılmışdır. Birinci təyinat məhz Şuşa rayonuna olan təyinatdır. Bu da təbiidir. Şuşa Azərbaycan xalqının qəlbində xüsusi yerə malikdir. Şuşa Qarabağın tacıdır, Şuşa təkrarolunmaz şəhərdir. Şuşanın yerləşməsi, təbiəti, havası, iqlimi, tarixi abidələri, dini abidələrimiz, şəhərin memarlıq ansamblı bizim milli sərvətimizdir. Şuşanı biz qorumalıyıq, qoruyacağıq. Biz Şuşaya qayıtmışıq və bundan sonra Azərbaycan xalqı Şuşada əbədi yaşayacaqdır. Necə ki, bütün dövrlərdə Şuşa həmişə Azərbaycan şəhəri olmuşdur və ermənilərin saxtakarlıq cəhdlərinə baxmayaraq, bütün dünya Şuşanı məhz Azərbaycan şəhəri kimi tanıyıb və qəbul edib”.

## Şuşada bərpa-quruculuq prosesinə artıq başlanılıb

Prezident İlham Əliyev nitqində bildirib ki, hər bir şəhərin, hər bir kəndin, rayonun ermənilər tərəfindən qəsb edilməsi böyük faciə idi. Şuşanın işğal altında düşməsi isə Azərbaycan üçün bəlkə də ən ağrılı itki olub. Çünki bu şəhərin strateji nöqtədə yerləşməsi bütün bölgəyə nəzarət etməyə əsas verirdi. Eyni zamanda, Şuşanının müdafiəsini, hətta az qüvvələrlə belə təşkil etmək mümkün idi. Ona görə də şəhərin itirilməsi xalqımız üçün böyük mənəvi sarsıntı yaratdı və insanlar 28 il Şuşasız yaşadı. Ancaq şəhər ermənilər tərəfindən dağıdılsa da, əyilmədi, əsirlikdə olsa da, öz ləyaqətini itirmədi, erməniləşdirmə cəhdlərinə məruz qalsa da, Azərbaycan ruhunu qoruyub saxladı. İndi “biz Şuşaya qayıtmışıq və noyabrın 8-də bu müjdəni Azərbaycan xalqına verərək demişdim ki, Şuşa, sən azadsan! Biz öz tariximizə qayıtmışıq. Əlbəttə ki, Şuşanı bərpa edəcəyik, Şuşanı dirçəldəcəyik və dirçəlmə prosesi artıq başlamışdır”.

Dövlətimizin başçısı çıxışında daha sonra diqqətə çatdırıb ki, ötən illər ərzində düşmən nə qədər cəhd göstərsə də, Şuşanı dünyaya erməni şəhəri kimi təqdim edə bilməyib. Onlar bir çox xarici qonaqları qanunsuz olaraq Şuşaya gətirsələr də, bu şəhər haqqında tarixi faktları saxtalaşdırsalar da, adını dəyişdirsələr də, saxta kitablar yazdırsalar da, bu mövzuda simpoziumlar, tədbirlər keçirsələr də, heç kim yalanlarına, uydurmalarına inanmayıb. Çünki Şuşaya gələn hər bir insan görürdü ki, şəhərin memarlıq ansamblı Azərbaycan memarlıq məktəbini təcəssüm etdirir.

Prezident İlham Əliyev Qarabağın, Azərbaycanın incisinin tarixi haqqında həqiqətləri də xatırladıb: “Şuşanı quran, Şuşa şəhərini salan bizim əcdadımız Pənahəli xan olmuşdur. Məhz onun fəaliyyəti, səyləri nəticəsində Şuşa şəhəri salınıbdır. Ondan əvvəl Pənahəli xan Bayat qalasını, Şahbulaq qalasını salmışdır. Təsadüfi deyil ki, bu şəhərə verilən birinci ad Pənahabad idi, öz adını vermişdir. Ondan sonra isə Şuşanın təmiz havasını, şüşə kimi havasını nəzərə alaraq bu şəhərə Şüşə, yəni Şuşa adı verilmişdir”.

Dövlətimizin başçısının vurğuladığı kimi, bu dərəcədə saxtakarlıq ola bilərmi?! Məlumdur ki, işğal dövrünə qədər Şuşa şəhərində daim azərbaycanlılar yaşamışlar. Burada erməni əhalisi demək olar ki, yox idi. Hətta 1920-ci illərdə Azərbaycan torpağıda Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılanda Şuşanın əhalisinin əksəriyyəti azərbaycanlılar olmuşdur və işğal dövründə əhalinin 98 faizi azərbaycanlılar idi.

Azərbaycan Prezidenti çıxışında düşmənin 28 illik işğal dövründə Şuşada daşı daş üstə qoymadığını, bütün bulaqları qurutduğunu, tarixi abidələrimizi, məscidlərimizi, yaşayış binalarını dağıtdığını diqqətə çatdırıb. “Mən Şuşada olarkən bu dağıntıları öz gözümlə görmüşəm. Elə bil ki, oradan vəhşi qəbilə keçib, vandallar Şuşanı bu günə salıblar. Sonra da deyirlər ki, Şuşa erməni şəhəridir. Bu, növbəti erməni yalanıdır, saxtakarlığıdır! Onların bütün tarixi saxtakarlıq və mifologiya üzərində qurulub. Onlar və onların müxtəlif ölkələrdəki havadarları onlar üçün saxta tarix yaradıblar və bu saxtakarlıq bu gün də davam edir...”.

## “Şuşanın azad olunmasında Azərbaycan əsgər və zabiti qəhrəmanlıq, peşəkarlıq, fiziki güc, yüksək milli ruh göstərib”

Dövlətimizin başçısı hazırda erməni nümayəndələri və onların xaricdəki havadarlarının Şuşanın azad olunması ilə bağlı yalanlar uydurduqları, iftiralar səsləndirdikləri barədə də danışıb: “Guya Şuşa bizə elə-belə verilib, döyüşlər getməyib, ermənilər Şuşanı tərk ediblər. Ağ yalandır! Şuşa əməliyyatı Azərbaycan xalqının qəlbində əbədi yaşayacaq. Şuşa uğrunda gedən döyüşlərdə şəhid olmuş qəhrəman övladlarımızın əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq. Şuşanı azad edərkən Azərbaycan əsgər və zabiti qəhrəmanlıq, peşəkarlıq, fiziki güc, yüksək milli ruh göstərib...”.

Bəli, Şuşa uğrunda gedən döyüşlərdə Azərbaycan Ordusu qəhrəmanlıq, şücaət nümayiş etdirdi. Qırx dörd günlük müharibənin hər günü Silahlı Qüvvələrimizin irəliləməsi, torpaqlarımızı işğaldan azad etməsi ilə əlamətdar oldu. Hər gün düşmən döyüş meydanında haqlı cəzasına çatdı. Ordumuz irəlilədikcə isə bütün Azərbaycan ictimaiyyətinin, dünyanın hər yerində yaşayan soydaşlarımızın, dostlarımızın diqqəti Şuşaya yönəldi. Hər bir kəs Şuşanın azad ediləcəyini nəinki gözləyirdi, həm də bu xəbəri mütləq eşidəcəyinə inanırdı. Prezident İlham Əliyev oktyabr ayında Türkiyənin “A Haber” televiziya kanalına müsahibəsində “Şuşasız bizim işimiz yarımçıq olar” deməsi də hamımızda bu əminliyi gücləndirmişdi.

Həmin günlərdə Azərbaycan əsgəri Şuşaya doğru yaxınlaşırdı. Sıx meşələrlə, sıldırım dağlarla irəliləyən Silahlı Qüvvələrimiz bu yolda qəhrəmanlıq, hünər, şücaət nümunələri göstərirdi. Düşmənin heç vaxt ağlına belə gəlməzdi ki, Azərbaycan əsgəri dağlardan, dərələrdən, sıldırım qayalardan dırmaşıb keçərək Şuşaya çata bilər. Lakin müzəffər ordumuzun milli və döyüş ruhu bu əfsanəni reallığa çevirə bildi: ötən il noyabr ayının 8-i Zəfər Günü kimi tariximizə yazıldı. Ali Baş Komandan İlham Əliyev Şuşaya qəhrəman əsgərlərimizin açdığı yolla getdi və onu Qələbə yolu adlandırdı: “Noyabrın 8-də qədim Şuşa şəhərimizi düşməndən azad edərək Azərbaycan parlaq qələbə qazandı. Şuşanın işğaldan azad edilməsi böyük qəhrəmanlıq, peşəkarlıq, milli ruh tələb edirdi. Azərbaycan hərbçiləri bütün bu ülvi xüsusiyyətləri nümayiş etdirmişdir. Mən Şuşaya Qələbə yolu ilə gəlmişəm. O yol indi açılıbdır, yol yox idi. Dağlardan, meşələrdən, dərələrdən keçərək, onlarla kilometr məsafəni qət edərək qəhrəman Azərbaycan hərbçiləri yol boyunca kəndləri, qəsəbələri düşməndən azad edib, Şuşa şəhərinə yaxınlaşıb, Daşaltı kəndini azad edib və ondan sonra Şuşanı işğalçılardan azad edib”.

## Şəhərin işğalı AXC-Müsavat cütlüyünün xəyanətinin nəticəsi idi

Şuşa mühüm strateji ərazidə yerləşir. Şəhərin təbii relyefi onu düşmən hücumundan olduqca güclü və möhkəm bir şəkildə mühafizə edir. Ona görə də Şuşanın 1992-ci ildə ermənilər tərəfindən işğal edilməsi Birinci Qarabağ müharibəsinin ən ağrılı, faciəli hadisəsi idi.

O dəhşətli hadisənin şahidləri yaxşı bilirlər ki, Şuşanın işğalı Ermənistanın hərbi gücü ilə reallaşmayıb. İşğalçı bu qəsbkarlığa həmin dövrdə Azərbaycanda gedən siyasi çəkişmələrin, hakimiyyət uğrunda mübarizənin nəticəsində nail olub.

Şuşanın, daha sonra Laçının işğal olunması hakimiyyət uğrunda mübarizə aparan AXC-Müsavat cütlüyünün vəzifə hərisliyinin, eyni zamanda, idarəetmə təcrübəsizliyinin məntiqi nəticəsi idi ki, əslində, bu da Vətənə xəyanətdən başqa bir şey deyildi.

Dövlətimizin başçısı Aydın Kərimovu videoformatda qəbul edərkən bu barədə ətraflı məlumat verib: “Şuşanın 1992-ci il mayın 8-də itirilməsi böyük faciə idi. Bu faciənin günahkarları AXC-Müsavat cütlüyüdür. Hamı bunu bilməlidir, heç kim bunu unutmamalıdır. O vaxt Azərbaycanda hakimiyyət uğrunda mübarizə gedirdi. AXC-Müsavat cütlüyü hakimiyyətə can atırdı, o vaxtkı hakimiyyəti yıxmaq üçün bu təxribatı törətdi, Şuşanı faktiki olaraq düşmənə təhvil verdi. O vaxt Azərbaycan müdafiə naziri AXC-Müsavat cütlüyünün törəməsi idi, onların quyruqlarından idi. Şuşanı satan birinci o olmuşdur. Sonra da demişdi ki, mənim günahım yoxdur. Necə sənin günahın yoxdur, satqın, xain. Demişdi ki, Şuşa əldən getsə, başıma güllə çaxacağam. Bu günə qədər də bu güllənı çaxmayıb öz satqın başına. AXC-Müsavat cütlüyü öz çirkin niyyətlərinə çatıb. Şuşa və ondan bir neçə gün sonra Laçın rayonunun işğal altına düşməsi nəticəsində o vaxtkı hakimiyyət kənarlaşdırılıb və hərbi çevriliş nəticəsində AXC-Müsavat hakimiyyətə gəlib. Ondan sonra Şuşanı unudub, Şuşanı faktiki olaraq ermənilərə bağışlayıb və sonra digər xəyanət törədib - 1993-cü ilin aprel ayında Kəlbəcəri düşmənə təhvil verib. Günahsız, əliyalın insanları orada tək qoyub, xilas edə bilməyib, qoruya bilməyib. Ondan sonra da nə edib?! Fərarilik edib, qaçıb. Ali Baş Komandan fərari, dövlət katibi fərari, parlamentin sədri fərari, digər fərarilər qaçıb gizləndilər, biri Kələkidə, biri xaricdə. Əgər müharibə dövründə Ali Baş Komandan qaçırsa, bunun adı fəraridir, başqa adı yoxdur. Hamı bunu bilməlidir, heç kim bunu unutmamalıdır”.

## “Biz hamımız, bütün xalqımız Şuşanı dirçəldəcəyik!”

Azərbaycan Prezidenti çıxışında Şuşada hazırda bərpa-quruculuq işlərinə başlanıldığını da diqqətə çatdıraraq, artıq şəhərdə komendantlığın fəaliyyət göstərdiyini, indi isə mülki idarəetmə institutunun yaradıldığını bildirib.

Dövlətimizin başçısı niqində Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimova müvafiq tövsiyələrini də verib:

**–Şuşanın bərpası, dirçəlməsi planlı şəkildə aparılmalıdır;**

**–şəhərin tarixi siması saxlanılmalıdır, Şuşaya yad olan hər hansı bir tikintiyə yol verilməməlidir;**

**– Şuşanın bərpası şəhərə mütəxəssislərdən ibarət ezam edilən qrupun apardığı bütün təftiş, təhlil işləri əsasında həyata keçirilməlidir;**

**–Şuşa ilə bağlı indidən müxtəlif ölkələrdə təqdimatlar və sərgilər keçirilməlidir. Müvafiq qurumlarla birlikdə hazırlanan proqram əsasında dünyanın müxtəlif ölkələrində şəhərin tarixi, işğal dövrü, bugünkü bərpa işləri ilə bağlı təqdimat gerçəkləşdirilməlidir. Həm Azərbaycan ictimaiyyəti, eyni zamanda, beynəlxalq ictimaiyyət bərpa işlərinin gedişi ilə əlaqədar məlumatlandırılmalıdır;**

**–infrastruktur layihələri ilə paralel olaraq şəhərsalma işləri düzgün aparılmalıdır;**

**–şəhərdə yaşayış fondunun təftişi müfəssəl şəkildə həyata keçirilməlidir.**

Prezident İlham Əliyev çıxışında, həmçinin Şuşada bu il iki tədbir keçiriləcəyini–“Xarı bülbül” festivalı və Vaqif poeziya günlərinin bərpa ediləcəyini diqqətə çatdırıb. Dövlətimizin başçısı, eyni zamanda, Vaqifin məqbərəsinin bu il ərzində bərpasının yekunlaşmasının zəruriliyi ilə bağlı tapşırığını da verib.

Bütün bunlar, deməyə əsas verir ki, Şuşa tezliklə dünyanın ən gözəl şəhərlərindən birinə çeviriləcək, burada həyat qaynayacaq. Şuşa yenidən çox zəngin mədəni həyata sahiblənəcək. Şəhərdə həm ölkə daxilindəki tədbirlər, eyni zamanda, bir çox beynəlxalq mərasimlər –festivallar, müsabiqələr, qastrollar keçiriləcək. Beləliklə, Şuşa nəinki Azərbaycanın, hətta bölgənin mədəniyyət paytaxtı adına layiq olacaq.

*Vaqif BAYRAMOV,*
*“Xalq qəzeti”*